# Tərtər: dinamik inkişaf, sosial tərəqqi

Bu günlərdə Tərtər Rayon İcra Hakimiyyətində "2015-ci ilin doqquz ayı ərzində rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlər və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin oktyabrın 12-də Nazirlər Kabinetinin cari ilin doqquz ayının yekunlarına həsr olunmuş iclasındakı çıxışından irəli gələn vəzifələr barədə" hesabat yığıncağı keçirilmişdir. Yığıncaqda rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların, hüquq-mühafizə orqanlarının rəhbərləri, inzibati ərazi dairələri üzrə nümayəndələr və bələdiyyə sədrləri, KİV təmsilçiləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Yığıncağı giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov hesabat məruzəsi ilə çıxış edərək 2015-ci ilin doqquz ayının bütövlükdə respublikamız, eləcə də Tərtər rayonu üçün yaddaqalan və uğurlu olduğunu qeyd etmişdir.

Nazirlər Kabinetinin iclasında cənab Prezident bildirmişdir ki, sahibkarlıq subyektlərində aparılan çoxsaylı yoxlamalar barəsində şikayətləri nəzərə alaraq 2015-ci il noyabrın 1-dən dayandırılır. Müxtəlif hökumət qurumları tərəfindən verilən və bəzən bir-birini təkrarlayan lisenziyalar, xüsusi razılıqlar, bürokratik əngəllər aradan qaldırılmalıdır. Bu, dövlət tərəfindən sahibkarlığın inkişafına göstərilən böyük dəstək, diqqət və qayğıdır.

Natiq ölkə rəhbərinin sahibkarlara verdiyi dəstəklə bağlı göstərişləri rəhbər tutaraq idarə, müəssisə rəsmilərinə vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına, Tərtərdə fəaliyyət göstərən sahibkarlara qarşı bürokratik əngəllərə yol verilməməsi barədə ciddi tapşırıqlar vermişdir. Bildirilmişdir ki, bundan sonra da rayon İcra Hakimiyyəti tərəfindən qanun çərçivəsində sahibkarlara lazımi köməkliklər göstəriləcəkdir.

Hesabat yığıncağında qeyd olunmuşdur ki, bu il dünyada davam edən böhran və tənəzzülə, neftin qiymətinin ucuzlaşmasına baxmayaraq, möhtərəm Prezidentin müdrik siyasəti nəticəsində ölkədə böyük nailiyyətlər əldə olunmuşdur. Azərbaycan sürətli iqtisadi inkişafa nail olmuşdur. Bu inkişafı Tərtər rayonunun timsalında da aydın görmək olar. Belə ki, rayon üzrə ümumi məhsul buraxılışının həcmi ötən ilin müvafiq dövrünə nisbətən 10,3 faiz artaraq 104.2 milyon manat təşkil etmişdir. Makroiqtisadi göstəricilərin yüksəlişi sakinlərin real gəlirlərinin artmasına, insanların həyat səviyyəsinin yüksəlməsinə təsir göstərmişdir.

Keçən ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı üzrə ümumi məhsul buraxılışının həcmi 7,5 faiz artmışdır. İlin ötən dövrü ərzində 10 min 843 hektar taxıl sahələrində biçin aparılmış, bir hektardan orta məhsuldarlıq 37.1 sentner olmaqla, 20 min 837 ton buğda, 5233 hektar arpa sahəsinin hər hektarından orta məhsuldarlıq 34.5 sentner olmaqla, 180 min 30 ton arpa tədarük edilmişdir. Hər hektardan orta məhsuldarlıq ötən ilə nisbətən buğda üzrə 2.7 sentner, arpa üzrə 1.1 sentner artmışdır.

Heyvandarlığın inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində rayonda 2108 ton diri çəkidə ət, 13472 ton süd, 7 milyon 640 min ədəd yumurta, 124 ton yun istehsal edilmişdir.

Rayonun Düyərli, Hüsənli, İsmayılbəyli, Azad Qaraqoyunlu, Xoruzlu, Qaradağlı, Hacıqərvənd, Sarov, Ələsgərli, Köçərli, Balakəngərli kəndlərinin hər birində 1 ədəd, Güləbatlı kəndində 2 ədəd olmaqla, 13 subartezian quyusunda qazma işləri başa çatdırılmış, Borsunlu kəndində 14-cü subartezian quyusunda qazma işləri yekunlaşmaq üzrədir.

Diqqətə çatdırılmışdır ki, tikinti-quruculuq və abadlıq işləri sürətlə davam etdirilmişdir. Rayon mərkəzində Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 54 mənzilli, 6 mərtəbəli yaşayış binası tikilib istifadəyə verilmişdir. Ev növbəsində qeydiyyata alınan 10 nəfər şəhid ailəsi və Qarabağ müharibəsi əlili üçün fərdi yaşayış evlərinin tikintisi davam etdirilmişdir.

Tərtər şəhərinin V.Orucov, T.Rəhimov, S.Vurğun, R.Kərimov və M.Hüseynzadə küçələrində 21.9 min kvadratmetr asfalt-beton örtüyü salınmışdır. Tərtər çayı sahilində 2.5 hektar ərazidə yeni park salınması üçün hazırlıq işləri aparılmışdır. Heydər Əliyev prospektində yüksək gərginlikli hava xəttinin 1300 metr məsafədə SİP kabellə yeraltı çəkilişi işləri görülmüşdür. Şəhərin M.Əsədov və T.İsmayılov küçələrində istinad divarlarının aqlay və bəzək daşları ilə üzlənməsi işləri davam etdirilmiş, M.Əsədov küçəsində 1600 metr məsafədə yol kənarına bordür düzülərək səkilər salınmışdır. F.Qulami küçəsində 1700 metr məsafədə gecə işıqlanması sistemi quraşdırılmış, ümumi uzunluğu 3.7 kilometr olan istinad divarları 7500 kvadratmetr aqlay və bəzək daşları ilə üzlənmiş, küçədə olan kommunikasiya xətləri səliqəyə salınmışdır. H.Əliyev prospektində, E.Səfərov, M.İbrahimov və F.Qulami küçələrində ümumi uzunluğu 3.0 kilometrdən çox olan yeni səki daşları düzülmüş, küçələr genişləndirilmişdir. Azərbaycanın Milli Qəhrəmanı V.Orucov adına küçədə təmir-abadlıq işləri aparılmış, istinad divarları bəzək daşları ilə üzlənmiş, gecə işıqlanma sistemi quraşdırılmış, yola asfalt örtük çəkilmiş və küçənin girişində V.Orucovun barelyefi quraşdırılmışdır. Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun, "Azərbaycan Bayrağı" ordenli Mehrac Mahmudovun, şəhid İlqar Həsənovun adları verilmiş küçələrdə də abadlıq işləri aparılmış və həmin küçələrin girişində də tezliklə barelyeflər qoyulacaqdır.

Tərtər şəhərində 100 yerlik yeni uşaq bağçasında, müasir tələblərə cavab verən yeni şahmat məktəbində, Qapanlı kənd tibb məntəqəsində, Kənd Təsərrüfatı İdarəsinin inzibati-laboratoriya binasında tikinti işləri aparılır. Bəyimsarov kənd xəstəxanasında və Qaraağacı kənd tam orta məktəbində, Mədəniyyət Mərkəzinin folklar klubunda əsaslı, mərkəzi rayon xəstəxanasının yardımçı binasında, Qazyan kənd həkim məntəqəsində, Əskipara kənd tam orta məktəbində, Qazyan kənd ümumi orta məktəbində, Kovdadıq kənd ibtidai məktəbində və Mədəniyyət mərkəzinin Ələsgərli filialında, Ələsgərli və Qaradağlı kənd kitabxanalarında cari təmir işləri görülmüşdür. Gənclər Mərkəzi və Təhsil Şöbəsinin inzibati binasının fasad hissələri aqlay daşı ilə üzlənmiş, hər iki bina gecə işıqlanması ilə təchiz edilmişdir. Heydər Əliyev prospektində bir çox idarə və təşkilatların fəaliyyət göstərdiyi üçmərtəbəli inzibati binanın fasad hissəsi müasir memarlıq üslubunda aqlay daşı ilə üzlənmiş, gecə işıqlanması ilə təchiz edilmiş və pəncərələri dəyişdirilmişdir. Şəhərin H.Əliyev prospektində 1 ədəd 5 mərtəbəli, Ə.Paşayev küçəsində 5 ədəd 2 mərtəbəli yaşayış binalarının dam örtüyü əsaslı təmir olunaraq, müasir mansard üslubunda yenidən qurulmuşdur. Tərtər Cümə məscidində əsaslı təmir işləri başa çatmaq üzrədir.

2015-ci ilin iyun ayında Tərtər şəhəri və ətrafdakı 11 kənddə içməli su və kanalizasiya sisteminin qurulması layihəsinin icrasına başlanılmışdır. Hazırda Tərtər şəhərinin 13 küçəsində qazıntı və quraşdırma işləri aparılır, 26 kilometr magistral kanalizasiya xətti, 12,4 kilometr magistral su xətti çəkilmiş, 1317 ədəd dəmir-beton baxış quyuları quraşdırılmışdır. Tutumu 5000 kubmetr olan su anbarının tikintisinə başlanılmışdır. Anbara 1200 metr su xətti çəkilmişdir.

Cari ilin 9 ayı ərzində istehlakçıların enerji ilə fasiləsiz təminatı üçün aparılan işlər davam etdirilmişdir. Tərtər şəhərində 10 ədəd yeni transformator quraşdırılmışdır. Çaylı kəndində məskunlaşmış məcburi köçkünlər üçün yeni 1,55 km 6 kv-luq və kəndin içində 2,5 km 0.4 kv-luq hava xətləri çəkilmişdir. Bu sahədə müəyyən işlər gerçəkləşsə də, əhalinin elektrik enerjisi ilə tam təmin olunması üçün görüləcək işlər hələ çoxdur.

Rayonda təbii qaz təminatının yaxşılaşdırılması məqsədilə Dövlət Proqramına uyğun olaraq, kəndlərin qazlaşdırılması davam etdirilmişdir. 2015-ci ilin 9 ayı ərzində rayonun 8 yaşayış məntəqəsinə - İsmayılbəyli, Evoğlu, Mamırlı, Poladlı, Bala Kəngərli, Kəngərli, Təzəkənd, Hacıqərvənd kəndlərinə qaz xətti çəkilərək əhalinin istifadəsinə verilmişdir. Rayonun 7 yaşayış məntəqəsində - Borsunlu, Seydimli, Cəmilli, Qaradağlı, Sarov, Köçərli, Yuxarı Sarıcalı kəndlərində qazlaşma işləri sürətlə davam etdirilir və son tamamlama işləri aparılır. Bəyimsarov və İlxıçılar kəndlərində qazlaşma işlərinə başlanılmışdır. Seydimli-Borsunlu kəndləri istiqamətində diametri 315 mm olan yeraltı daşıyıcı polietilen qaz xəttinin çəkilişi başa çatdırılmışdır.

Rayon icra hakimiyyətinin başçısı M.Məmmədov hesabat məruzəsində əminliklə bildirmişdir ki, tərtərlilər möhtərəm Prezident cənab İlham Əliyevin uğurla həyata keçirdiyi inkişaf strategiyasını dəstəkləyir, Tərtərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması təmin olunacaqdır.

**Maarif RZAYEV,**
**"Respublika".**